

# ABŞ Prezident İlham Əliyevin fəaliyyətinə birmənalı dəstək, liderlik keyfiyyətinə isə yüksək qiymət verdi

## Con KERRİ:

# "Prezident İlham Əliyevə regional təhlükəsizliklə bağlı səylərinə görə təşəkkür edirəm"

Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək məqsədi daşısa da, səfərin əhəmiyyətini artıran digər mühüm amillər də var. Zirvə görüşünün dünyanın ən güclü fövqəldövlətində keçirilməsini və tədbirə 50-dən artıq ölkənin rəhbərinin qatılmasını nəzərə alsaq, aydın görünür ki, buradakı müzakirələr yalnız nüvə təhlükəsizliyi məsələsi ilə məhdudlaşmayacaq. Əksinə, "təhlükəsizlik" mövzusu terrorizmdən iqtisadi sferaya, geosiyasətdən enerji təminatına, qlobal təbii fəsadlardan miqrantlar kimi artıq siyasiləşmiş böhrana qədər hüdudsuz diskussiya miqyasını əhatə edəcək.

Elə sammitin rəsmidən daha vacib sayılan qeyri-rəsmi gündəliyinin özəyini də məhz nüvə təhlükəsi qədər fəlakət vəd edən digər iqtisadi, siyasi, hərbi problemlərin, ictimai bəlaların müzakirəsi təşkil edir. Beynəlxalq tədbirin əlahiddəliyini artıran digər mühüm faktor isə dövlət rəhbərlərinin öz aralarında ikitərəfli görüşlər keçirmək və qarşılıqlı təşəbbüslərə nəzər salmaq imkanı qazanmalarıdır.

Bu baxımdan Azərbaycan Prezidentinin Vaşinqtona səfərini yalnız sammitdə iştirak kontekstində dəyərləndirmək düzgün olmaz. Həm Azərbaycanın dünyanın yeni enerji təhlükəsizliyi arxitekturasında fəal iştirakı, həm beynəlxalq terrorizmə qarşı mübarizə məsələsində birmənalı prinsipial mövqeyi, eyni zamanda, Prezident İlham Əliyevin qlobal siyasi məkanda nüfuzlu liderlərdən biri kimi qəbul olunması dövlət başçımızın səfər qrafikinin olduqca sıx və mənalı olacağını əvvəlcədən müəyyənləşdirmişdi.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti Vaşinqtona gəlişinin elə ilk saatlarında ABŞ-ın siyasətini müəyyənləşdirən əsas simalardan biri olan dövlət katibi Con Kerri ilə görüşdü. Rəsmi vəzifəsi xarici siyasət idarəsinin rəhbəri olsa da, Ağ evin bütün dünya üzrə hərbidən ticarətə, siyasətdən kosmosa qədər hər bir sahədə maraqlarının ifadəçisi, qoruyucusu olan və nüfuzuna görə dünya liderləri arasında "ilk onluqda" olan bu şəxslə görüş xüsusi əhəmiyyət daşıyır. Azərbaycan-ABŞ münasibətlərində son dövrdə baş verən məlum proseslər, - bu bəzən heç də müsbət istiqamətdə olmayıb, - kontekstində iki dövlət rəsmilərinin ən yüksək ranqda müzakirə aparmaları şübhəsiz ki, ikitərəfli münasibətlərdə mövcud olan müəyyən nüansların aradan qalxmasına təkan verəcək. Bu münasibətlərə kölgə salmaq üçün təəssüf ki, qeyri-rəsmi səviyyədə uzun müddətdir fəaliyyət göstərənlər də vardı. Birbaşa antiazərbaycançı şəbəkənin nəzarətində olan ictimai təsisatlar, hüquq mərkəzləri və digər bu kimi qurumlar cidd-cəhdlə ölkəmizə, onun Liderinə qarşı vahid mərkəzdən idarə olunan qarayaxma kampaniyası aparırdılar. Onların əsas istəyi Azərbaycanın və onun Prezidentinin ABŞ tərəfindən rəsmi səviyyədə təcrid olunması idi.

Lakin antiazərbaycançı şəbəkənin və erməni lobbisinin bütün bu məkrli təşəbbüsləri nəticəsiz qaldı. Ötən ilin dekabrında ABŞ Prezidenti Azərbaycanın dövlət başçısına şəxsən dəvət məktubu göndərdi, səfərin başlanmasının ilk saatlarında isə Prezident İlham Əliyev dövlət katibi ilə görüşdü.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan rəhbəri ilə görüşdən dərhal sonra Con Kerri ABŞ Prezidentinin qəbuluna yollandı. Deməli, Barak Obamanın diqqətinə çatdırılan məsələlər sırasında heç şübhəsiz ki, Azərbaycan Prezidenti ilə aparılan müzakirələr də olmuşdu. Bu müzakirələrin əsas leytmotivi isə dövlət katibinin də qeyd etdiyi kimi, Birləşmiş Ştatlarla Azərbaycan ilə güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olmasının bəyanı idi.

Con Kerri ikitərəfli münasibətlərdə çox sahələr üzrə qarşılıqlı maraqlarının mövcudluğunu vurğulamaqla yanaşı, sülhməramlı əməliyyatlara verdiyi töhfəsinə və Əfqanıstandakı səylərinə görə Azərbaycana çox minnətdar olduqlarını da xatırlatdı. Mürəkkəb regionda yerləşən respublikamızla tərəfdaşlığın önəmini qeyd edən C.Kerrinin Azərbaycan Prezidentinin "Cənub qaz dəhlizi" layihəsinə rəhbərlik missiyasını yüksək qiymətləndirməsi, həmçinin məlum ehtiyacların qarşılanması üçün çox ciddi səylər göstərməsinə və bu məsələni diqqət mərkəzində saxlamasına görə ölkə rəhbərimizə təşəkkür etməsi şübhəsiz ki, Ağ evin şəxsən Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi birmənalı dəstək, onun liderlik keyfiyyətinə bildirdiyi yüksək qiymətdir.

Con Kerrinin hər bir sözü Ağ evin - ABŞ-ın rəsmi sözüdür. Bu baxımdan çox az danışan dövlət katibinin hər bir fikrinin, cümləsinin dünyanın ən böyük fövqəldövlətinin mövqeyi kimi izah olunması qəbuledilən dir. Dövlət katibinin Prezident İlham Əliyevin fəaliyyətindən bəhs edərkən söylədiyi, "Bu, Avropanın uzunmüddətli strateji maraqları naminə və səmimi söyləsəm, vacib olan enerji mənbələrinin şaxələndirilməsinə cəhd göstərmək üçün atılmış çox ciddi bir addımdır" bəyanatı isə Azərbaycan liderinin geosiyasi müstəvidə yürütdüyü təşəbbüslərdən ABŞ-ın məmnun olmasına dəlalət edir.

Ümumiyyətlə, bu görüşün əsas məğzi məhz rəsmi Ağ evin Azərbaycana və onun Liderinə müxtəlif məsələlərlə bağlı minnətdarlıqlar etməsi idi. Onların bəzilərini yuxarıda sadaladıq, bundan əlavə, Con Kerri Prezident İlham Əliyevə Azərbaycan üçün iqtisadi imkanların artırılması üçün fəaliyyətinə, eləcə də regional təhlükəsizlik münasibətlərinin uyğunlaşdırılması üçün göstərdiyi səylərinə görə də təşəkkür etdi.

Ən mühüm məqamlardan biri isə dövlət katibinin Birləşmiş Ştatların Azərbaycan ilə güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirməsi və Azərbaycanda gedən iqtisadi islahatların, iqtisadiyyatın şaxələndirilməsi proseslərinin Vaşinqtonda maraqla izlənildiyini vurğulaması idi.

Prezident İlham Əliyev də 25 illik ABŞ-Azərbaycan münasibətlərinə yüksək dəyər verildiyini, bu əlaqələrin həmişə sıx, səmimi olduğunu, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatdığını və fəal siyasi dialoqun mövcudluğunu xüsusi qeyd etdi. ABŞ şirkətlərinin iqtisadiyyatımıza 10 milyard dollardan artıq sərmayə yatırdığını iqtisadi əməkdaşlığın, həmçinin ölkəmizin inkişafının yaxşı göstəricisi kimi vurğulayan ölkə rəhbəri Xəzər və Aralıq dənizlərini birləşdirən kəmərlərin tikintisi kimi əhəmiyyətli layihələrin məhz Amerika Birləşmiş Ştatlarının güclü dəstəyi ilə icra olunduğunu da xatırlatdı. Birgə əməyin məhsulu olan "Cənub qaz dəhlizi" layihəsinin enerji təhlükəsizliyinə, mənbələrin şaxələndirilməsinə və həmin layihəyə cəlb olunmuş bütün tərəflərə - istehsalçı, tranzit və istehlakçı ölkələrə uzunmüddətli fayda verəcəyini söyləyən dövlət başçısı ABŞ-ın dəstəyi olmasaydı, həmin layihənin həyata keçirilməsi üçün daha çox müddət və səylərin lazım olacağını da bildirdi. Ermənistan və Azərbaycan arasında uzun müddət davam edən münaqişənin həlli yolunun isə məhz ərazi bütövlüyü prinsipi çərçivəsində olduğu dünyanın siyasi mərkəzindən bir daha bəyan edildi.

"Mən əminəm ki, bu görüş bizim dostluq münasibətlərimizin daha da inkişaf etdirilməsində öz rolunu oynayacaqdır" - deyən Prezident İlham Əliyevin növbəti saatlardakı görüşləri isə Amerika Birləşmiş Ştatlarının ticarət naziri Penni Pritzker, həmçinin Amerika İsrail İctimaiyyətlə Əlaqələr Komitəsinin, Avrasiya Yəhudilərinə Dəstək Milli Koalisiyasının və Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının rəhbərliyi və bir sıra konqresmenlərlə oldu. Bu görüşlər silsiləsi ötən gün ərzində də davam edib.

Göründüyü kimi, Prezident İlham Əliyevin ABŞ-a səfəri elə ilk gündən uğurla başladı. Antiazərbaycançı şəbəkənin bütün iddialarına rəğmən bir daha sübut olundu ki, ABŞ həm Azərbaycanı özünün önəmli tərəfdaşı sayır və onu itirmək niyyətində deyil, həm də Prezident İlham Əliyevin fəaliyyətinə dəstəyini davam etdirir, onun geosiyasi təşəbbüslərini hər zamankı kimi birmənalı müdafiə edir.

Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət uzun müddətdir ki, ciddi manevrlər, qlobal təhdidlərlə üzləşirdi. Artıq bu kimi təsirlərin əhəmiyyətsizliyi, onların hər cəhddə nəticəsiz qalacağı bütün maraqlı dairələrə aydındır.

Azərbaycan Liderinin dediyi kimi, müstəqil siyasətin alternativi yoxdur və gec-tez hər kəs bu siyasətlə hesablaşacaqdır.

ABŞ səfərinin birinci gününün ilkin nəticəsi də bunu bir daha təsdiq etdi...

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***